# ...AY Qalereyasında rəssam Aida Mahmudovanın "Umwelt" adlı fərdi sərgisi açılıb

## ...ydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgi ilə tanış olub







...AY Qalereyasında rəs- ... Aida Mahmudovanın ...velt" adlı fərdi sərgisi ...

...ydər Əliyev Fondunun ...prezidenti Leyla Əliye- ...rgi ilə tanış olub.

...ƏRTAC xəbər verir ki, ...i şəxslərin, görkəmli ...niyyət və incəsənət xa- ...rinin, ictimaiyyət nüma- ...ələrinin iştirak etdikləri ...də rəssam Aida Mah- ...vanın kətan üzərində



...q üslubda işlədiyi "Flo- ...eds", "Landscape", "İn- ..., "Rockbed", ...rgrown", "The Coral" ...əri, habelə "The Shard" ...əltəraşlıq nümunəsi yer

...mwelt" (alman dilində ...it" deməkdir) ifadəsi ...-cu ildə tanınmış bioloq ...osof Yakob fon İksyukl ...ndən işlədilib. Bu ter- ... o, eyni yaşayış mühi- ... (ekosistemdə) olan ...əlif canlıların, o cümlə- ...nsanın cürbəcür xarici ...llara fərqli reaksiya ...əsi faktını izah etməyə ...o. Belə ki, iti eşitmə və ...ə qabiliyyətinə malik ...ar son dərəcə həssas ...ə duyğusunun, yaxud ... mühitlə ultrasəs dalğa-

ları və elektrik sahəsinin köməyi ilə qarşılıqlı təmasda olan canlılara nisbətən dünyanı fərqli, özünəməxsus şəkildə qəbul edirlər. Yeni terminin başlıca məqsədi insanların da yaşadığı ətraf aləmin müxtəlifliyini təsvir etməkdir.

Fərdi "Umwelt" qəbul etməyə hazır olduğumuz ən yaxın ətraf aləm sahəsidir, bu, hər birimizdə var. Balinalar, yarasalar, quşlar və bütün digər canlılar kimi, biz də ətrafımızda cərəyan edən hadisələri öz təcrübəmiz, xarakterimiz və mövcud şəraitin prizmasından qəbul edirik. Bizim "Umwelt" nisbətən daha rahat yaşayış ərazisidir və gündəlik həyatımızda üzləşməli olduğumuz, adət etdiyimiz hərəkət marşrutlarının, öhdəliklərin, situasiyaların və risklərin cəmini özündə birləşdirir. Beləliklə, biz dünyanın sadəcə bir "monolit" təsvirini deyil, saysız-hesabsız təhriflərin və deformasiyaların yer aldığı bir çox nadir təsvirlər əldə edirik. Həmçinin insan digər canlılardan fərqli olaraq, müxtəlif baxışların fərqini heç də həmişə obyektiv gerçəklik kimi qəbul etmir, bunu "dinməz-söyləməz" razılaşmır. Təzadlar və uyğunsuzluqlar bizi diskomfort hissi yaşamağa, bəzən isə iztirab çəkməyə məcbur edir. Hasil edilən mənaların müxtəlifliyi isə bizi daha qətiyyətli edir.

Demək olar ki, hər bir insan məhz öz "Umwelt"ində bütöv bəşəriyyəti cəmləşdirdiyi barədə mütləq əminlik hissi yaşayır. Yalnız bir sıra insanlar var ki, müəyyən hüdudların olduğunu və bu hüdudlardan kənarda digər sivilizasiyaların mövcudluğunu dərk edirlər.

Biz, dərketmə qabiliyyətimizi formalaşdıran amillərin toplusunu, o cümlədən öz "Umwelt"imizin digərlərinə necə təsir etməsini çox vaxt başa düşmürük. Dünya təsəvvürümüzdə "əyri güzgüdə"ki kimi əks olunur və biz deformasiyaya uğramış bu təsviri xarici aləmə proyeksiya edirik.

İnsanlar, sadəcə, bir-birinə paralel dünyalarda yaşayır və öz fərdi dünyasını yaratmaqla, məhz ona məxsus "gerçəkliyin" daha dəqiq, daha inandırıcı versiya olduğuna tam əmin olur. Həqiqətin məhz bizdə olması ilə bağlı əminlik, digər "umveltlərin" qəbul edilməməsinə, cəmiyyət miqyasında isə ideoloji ehkamların müdafiəsinə, fərqli düşüncələrin inkar olunmasına gətirib çıxarır.

Belə bir vəziyyətdə məhz rəssam dözümlülüyün bariz nümunəsi, dərkedilməzliyin son dərəcə geniş həcmini anlayan bir şəxs kimi çıxış edir. Məhz rəssam bir çox fərdi proyeksiyalardan ibarət olan "həyat kətanının" mürəkkəblik duyğusunu ötürməyə, translyasiya etməyə qadir olur. İnsan fərqli idrak proseslərinin cərəyan etdiyi, müxtəlif koqnitiv aləmlərdə yaşayır və rəssamın yaradıcılığı belə "aləmlərin" təmərküzü sayıla bilər.

Aida Mahmudova 1982-ci ildə Bakıda dünyaya gəlib və burada yaşayıb-yaradır. O, 2006-cı ildə Londonda Sent-Martin İncəsənət və Dizayn Kollecinin rəngkarlıq fakültəsini bitirib. Bu gün onun əsərləri beynəlxalq səviyyədə sərgilənir. Bu sıradan 56-cı Venesiya Biennalesində Azərbaycan pavilyonunun "Vita Vitale" sərgisini, Romanın MAXXİ Muzeyində və 55-ci Venesiya Biennalesində "Love Me, Love Me Not" sərgisini qeyd etmək olar. Rəssamın fərdi sərgiləri 2013-cü ildə "Barbarian Art Gallery" (Sürix), 2015-ci ildə isə Nyu-Yorkda "Leila Heller Gallery" və Bakıda Müasir İncəsənət Muzeyində keçirilib. Aida Mahmudova 2011-ci ildə əsası qoyulan YARAT Müasir İncəsənət Məkanının təsisçisi və bədii rəhbəridir. YARAT Azərbaycanda müasir incəsənətin ictimaiyyət tərəfindən dərk olunması, milli incəsənətimizin ölkə daxilində və beynəlxalq səviyyədə təbliği ilə məşğuldur.

Aida Mahmudovanın avqustun 13-dək davam edəcək "Umwelt" sərgisinə giriş sərbəstdir.

**AZƏRTAC**

